## Qızılca

Qızılca yüksək yoluxuculuğa malik olan, hava - damcı yolu ilə (danışarkən,asqırarkən,öskürərkən) yayılan kəskin yoluxucu virus xəstəliyidir.

Xəstəliyin mənbəyi xəstə insandır.



## Əlamətlər və simptomlar

Qızılcanın ilkin əlamətlərindən biri virusa yoluxduqdan təxminən 10-12 gün sonra yaranan və 4 gündən 7 günədək davam edən temperaturun nəzərəçarpacaq (38,5-39°C) dərəcədə yüksəlməsi sayılır.

Bu mərhələdə zökəm, öskürək, gözlərdə qızartı və sulanma, həmçinin ağız boşluğunda kiçik ağ ləkələr (Filatov ləkələri) aşkar oluna bilər.

Bir neçə gündən sonra, adətən, üzdə və boynun yuxarı hissəsində səpgilər yaranır.

Təxminən 2 sutka ərzində səpgilər bütün bədənə yayılaraq, əl və ayaqlarda da yaranır. Səpginin yaranmasından 4 gün öncə və 4 gün səpgili dövrdə xəstə insan yoluxdurucu olur.



Səpgilər 5-6 gün ərzində qalır, sonra isə itməyə başlayır. Səpgilər orta hesabla virusa yoluxduqdan 14 gün sonra (7 gündən 18 günədək) yaranır.

Qızılcadan ölüm hallarının çoxu bu xəstəliklə bağlı yaranan ağırlaşmalar nəticəsində baş verir. Ağırlaşmalar daha çox 5 yaşa qədər uşaqlar və 30 yaşdan yuxarı insanlarda baş verir.

Ən təhlükəli ağırlaşmalara korluq, ensefalit (baş beynin ödeminə gətirib çıxaran infeksiya), kəskin diareya və onunla bağlı dehidratasiya (susuzlaşma), pnevmoniya, qulaq infeksiyaları aid edilir.

Qızılcanın ağır gedişi xüsusən A vitamini çatışmazlığından əziyyət çəkən və ya immun sistemi zəifləmiş, qidalanması normal olmayan kiçik yaşlı uşaqlar arasında daha çox baş verə bilər.

## Kimlər riskə məruz qalır?

Qızılcaya qarşı immuniteti olmayan, vaxtında peyvənd təqviminə uyğun vaksinasiya olunmayan hər bir şəxs qızılca ilə yoluxa bilər.



## Müalicəsi.

Qızılca xəstəliyinin müalicəsi əsasən ev şəraitində aparılır. Xəstəni və onun istifadə etdiyi əşyaları sağlam şəxslərdən təcrid etmək lazımdır.

Xəstəxanaya yalnız kiçik yaşlı uşaqları və xəstəliyi ağır keçirən şəxsləri yerləşdirirlər (fəsadların qarşısını almaq məqsədilə).

Xəstənin olduğu otaq mütəmadi olaraq nəm üsulla silinməli, havası tez-tez dəyişdirilməlidir.

Otağa işıq düşməsini maksimal səviyyədə məhdudlaşdırmaq lazımdır.

Uşağın əl-üzünü tez-tez yumaq, gündə 1-2 dəfə gözlərini yumaq, hər qida qəbulundan sonra isə ağızı yaxalamaq (stomatitin profilaktikası üçün) lazımdır, xəstəni soyuqdan qorumaq lazımdır.

Xəstəlik dövründə iştahasızlıq, ürəkbulanma, qusma, boğaz ağrıları müşahidə olunur.

Xəstələrə bol maye, sulu və yüngül yeməklər vermək məsləhətdir.

Xəstəlikdən sonra orqanizmdə ömürlük immunitet formalaşır.



***Profilaktika.***

Uşaqları qızılcadan zəmanətli qorumaq məqsədilə 2 doza qızılca-parotit-məxmərək əleyhinə peyvənd vurulmalıdır.

Milli peyvənd təqviminə uyğun olaraq bu peyvəndin 1-ci dozası uşaqlara 12 aylığında, 2-ci dozası isə 6 yaşında vurulur.

Qızılca əleyhinə vaksin 50 ildən çox müddət ərzində istifadə edilir.

O,təhlükəsiz və effektivdir. Uşaqları bu ağır xəstəlikdən qorumaq üçün onları vaxtında peyvənd etdirin.

Respublika Gigiyena və Epidemiologiya Mərkəzi
Sosial Gigiyena Monitorinqi şöbəsi
Tel.4220823

# QIZILCA